DOI:10.30546/gdu.5.2025

## *PEDAQOGİKA*

**UOT:37.**

# İBTİDAİ TƏHSİLDƏ DİSQRAFİYANIN ERKƏN DİAQNOSTİKASININ ELMİ-PEDAQOJİ ƏHƏMİYYƏTİ

***dosent Aslanova Səbinə Ramiz qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***ORCID 0009-0001-4052-1631***
***Sabina-aslanova@bk.ru***

**Xülasə:** *Məqalədə disqrafiyanın mahiyyəti, səbəbləri və növləri elmi-nəzəri baxımdan təhlil olunur. Yazılı nitqin pozulmasının neyropsixoloji əsasları izah edilir və ibtidai təhsildə disqrafiyanın erkən diaqnostikasının vacibliyi vurğulanır. Məqalədə erkən diaqnostikanın uşağın fərdi inkişaf xüsusiyyətlərini müəyyən etmək və yazı prosesində yaranan psixoloji çətinliklərin qarşısını almaq baxımından əhəmiyyəti geniş şəkildə araşdırılır. Müəllim və loqopedin əməkdaşlığı, fərdi tədris proqramlarının hazırlanması və valideyn dəstəyi korreksiya prosesinin effektivliyini artırır. Erkən müdaxilə uşaqların təhsil uğuruna və psixoloji sabitliyinə müsbət təsir göstərir.*

**Açar sözlər:** disqrafiya, erkən diaqnostika, yazılı nitq, ibtidai təhsil psixolinqvistika
**Keywords:** dysgraphia, early diagnosis, written speech, primary education, psycholinguistics
**Ключевые слова:** дисграфия, ранняя диагностика, письменная речь, начальное образование, психолингвистика

Müasir dövrdə uşaqlarda öyrənmə çətinliklərinin ən çox rast gəlinən formalarından biri yazılı nitq pozulması – disqrafiya hesab olunur. Disqrafiya yalnız hərf və ya yazı səhvləri ilə məhdudlaşmır; bu, beyin fəaliyyətindəki funksional əlaqələrin, fonematik qavrayışın, vizual-kinestetik mexanizmlərin və nitq strukturunun pozulması ilə xarakterizə olunan kompleks bir neyropsixoloji problemdir [1, s.12]. Yazı prosesi insanın idrak, qavrama, yaddaş və motor koordinasiya sistemlərinin vəhdəti nəticəsində formalaşır. Bu sistemlərdəki istənilən pozulma yazılı nitqin düzgünlüyünə təsir göstərir.

Tədqiqatçılar qeyd edirlər ki, disqrafiya məktəb dövründə müşahidə olunsa da, onun formalaşması əsasən məktəbəqədər yaşda baş verir [2, s.21]. Uşağın danışıqda, eşitmədə və səsləri fərqləndirməkdə çətinlikləri varsa, bu hallar sonradan yazı prosesinə də sirayət edir. Buna görə də disqrafiyanın erkən profilaktikası məktəbəqədər yaşdan başlanmalıdır.

Disqrafiyanın yaranması çoxfaktorludur və bioloji, psixoloji və sosial amillərin birgə təsiri ilə əlaqəlidir. A.N. Kornev disqrafiyanı "şifahi nitqin, eşitmə və görmə analizatorlarının qarşılıqlı fəaliyyətində pozulma" kimi xarakterizə etmişdir [3, s.35].

Əsas səbəblər aşağıdakılardır:
- Fonematik eşitmə və tələffüz mexanizmlərinin zəif inkişafı;
- Görmə qavrayışının və analiz-sintez bacarığının pozulması;
- Nitqin qrammatik quruluşunun zəif formalaşması;
- Kiçik motorikanın geridə qalması;
- Psixoloji və emosional gərginlik;
- Beynin sol yarımkürəsinin funksional disbalansı [4, s.49].

Bəzi hallarda disqrafiya genetik meyllərlə və ya hamiləlik dövründə dölün oksigen çatışmazlığı, doğuş travmaları, infeksiyalar kimi nevroloji faktorlarla da əlaqədar olur [5, s.28].

Tədqiqatçılar disqrafiyanın bir neçə növünü fərqləndirirlər [6, s.15]:

DOI:10.30546/gdu.5.2025

1. Akustik disqrafiya – səslərin fonematik fərqləndirilməsində çətinlik, məsələn, “ş” və “s”, “b” və “p” kimi səslərin qarışdırılması.

2. Optik disqrafiya – hərflərin vizual qarışması (məsələn, “p” və “q”, “d” və “b”).

3. Aqrammatik disqrafiya – cümlə strukturunda qrammatik səhvlərin çoxluğu (“mən kitab oxuyuram” əvəzinə “mən kitab oxuyur”).

4. Motor disqrafiya – yazı zamanı əl hərəkətlərinin koordinasiyasının pozulması.

5. Məntiqi-semantik disqrafiya – fikir ardıcıllığının və mətnin mənasının pozulması.

Bu növlər bəzən bir-biri ilə kombinə şəklində müşahidə olunur və kompleks korreksiya tələb edir.

Yazılı nitqin formalaşması beynin müxtəlif sahələrinin inteqrasiyasına əsaslanır. Neyropsixoloq A.R. Luriya qeyd etmişdir ki, yazılı nitq çoxmərhələli funksional sistemin nəticəsidir və hər hansı bir mərhələdə pozulma yaranarsa, bütöv sistemin fəaliyyəti pozulur [7, p.44]. Disqrafiyanın neyropsixoloji əsasları fonematik eşitmə, vizual analiz, kinestetik yaddaş və motor proqramlaşdırmanın inkişaf səviyyəsi ilə birbaşa bağlıdır.

Disqrafiyanın profilaktikası uşaqlarda düzgün nitqin formalaşdırılması, diqqət, yaddaş, eşitmə və motor bacarıqların inkişafı ilə başlanmalıdır. Məktəbəqədər yaşdan etibarən uşaqla sistemli ünsiyyət, artikulyar məşqlər, ritmik oyunlar və qrafomotor fəaliyyətlər disqrafiyanın qarşısını almağa kömək edir [9, s.31].

Korreksiya mərhələsində loqopedik məşğələlər əsas yer tutur. Burada uşağın fərdi nitq xəritəsi hazırlanır, səslərin differensial tələffüzü, hərf-səs uyğunluğu, vizual qavrayış və motor koordinasiya üzərində iş aparılır. Psixoloq və pedaqoqun əməkdaşlığı, ailə dəstəyinin təmin olunması korreksiya prosesinin effektivliyini artırır.

Disqrafiya yalnız pedaqoji deyil, həm də neyropsixoloji yanaşma tələb edən mürəkkəb öyrənmə pozulmasudur. Onun erkən yaşda aşkarlanması uşağın yazılı nitq bacarıqlarının formalaşması üçün əsas şərtdir. Müəllim, loqoped və valideyn arasında qarşılıqlı əməkdaşlıq, fərdi yanaşma və sistemli korreksiya məşğələləri nəticəsində disqrafiyanın təsiri minimuma endirilə bilər. Erkən profilaktika və düzgün diaqnostika uşağın akademik uğurunun və psixoloji sabitliyinin əsas təminatçısıdır.

Erkən diaqnostika uşağın fərdi inkişaf xüsusiyyətlərini və yazı prosesində qarşılaşa biləcəyi psixoloji çətinlikləri vaxtında müəyyən etmək baxımından əsas əhəmiyyətə malikdir. Yazılı nitq pozulmalarının ilkin mərhələdə aşkarlanması yalnız texniki səhvlərin düzəldilməsi ilə kifayətlənmir - bu proses uşağın ümumi psixi və nitq inkişafına təsir edən amillərin sistemli qiymətləndirilməsini tələb edir. Erkən diaqnostika müəllim və loqoped arasında davamlı və strukturlaşmış əməkdaşlıq mexanizmini zəruri edir. Müəllim sinifdə uşaqların yazı davranışını diqqətlə müşahidə etməli, yazı nümunələrini qeyd etməli, müşahidələr əsasında fərdi fərqləri müəyyənləşdirməli və bu məlumatları loqopedlə paylaşmalıdır. Loqoped isə bu məlumatları analiz edərək, uşağın yazılı nitqindəki spesifik çətinlikləri və onların səbəblərini təyin edir.

Bu yanaşma nəticəsində uşaqlar üçün fərdi tədris proqramları hazırlanır ki, bu proqramlar onların yazı bacarıqlarını mərhələli şəkildə inkişaf etdirmək məqsədini daşıyır. Tədris proqramı uşağın nitq inkişaf səviyyəsinə uyğun olaraq xüsusi tapşırıqlar və məşğələlər ehtiva edir, eyni zamanda təlim materiallarını sadələşdirir və məqsədli olaraq nitq-motor bacarıqlarını gücləndirir. Erkən müdaxilə uşağın emosional vəziyyətinə də müsbət təsir göstərir: uşaqların özünüqiymətləndirməsi artır, təlim prosesinə olan marağı güclənir və emosional gərginlik azalır.

Nəticədə erkən diaqnostika yalnız disqrafiyanın dərinləşməsinin qarşısını almır, həm də uşağın təhsil uğurunun və psixoloji sabitliyinin əsasını qoyur. Bu səbəbdən ibtidai təhsil səviyyəsində sistemli və davamlı diaqnostik fəaliyyət məktəb proqramının vacib hissəsinə

DOI:10.30546/gdu.5.2025

çevrilməlidir. Belə sistemli yanaşma nəticəsində uşaqlar yalnız yazı bacarıqlarını deyil, həm də ümumi nitq və psixi funksiyalarını inkişaf etdirərək gələcək təhsil mərhələlərində uğurla iştirak edə bilirlər.

### *Ədəbiyyat*


1. Aslanova S. R. Korreksiya pedaqogikasının əsasları. Bakı: ADPU, 2019.
2. Hüseynova N. Nitq pozulmaları və onların korreksiyası. Bakı: Elm və Təhsil, 2020.
3. İmanova L. Psixolinqvistika və yazı bacarıqları. Bakı: Maarif, 2018.
4. Корнев А. Н. Нарушения письма и чтения у детей. СПб.: Речь, 2003.
5. Лалаева Р. И. Дисграфия и дислексия у младших школьников. М.:Просвещение, 2005.
6. Levina R. E. Основы теории и практики логопедии. М., 1981.
7. Luria, A. R. The Working Brain. New York: Basic Books, 1973.
8. Frith, U.(1985). Beneath the surface of developmental dyslexia.Surface Dyslexia, 301–330.
9. Snowling, M. J., & Hulme, C. (2012). Interventions for children’s language and literacy difficulties. IJLCD, 47(1), 27–34.


## THE SCİENTİFİC AND PEDAGOGİCAL SİGNİFİCANCE OF EARLY DİAGNOSİS OF DYSGRAPHİA İN PRİMARY EDUCATİON

***Aslanova Sabina Ramiz***

***Summary***

The article examines the nature, causes, and types of dysgraphia from a scientific and pedagogical perspective. It explains the neuropsychological foundations of written speech disorders and emphasizes the importance of early diagnosis in primary education. The study highlights that early diagnosis allows identifying individual developmental characteristics of children and preventing psychological difficulties in the writing process. Teacher–speech therapist cooperation, individualized teaching programs, and parental support increase the effectiveness of corrective work. Early intervention positively influences children’s academic success and psychological stability.

## НАУЧНО-ПЕДАГОГИЧЕСКОЕ ЗНАЧЕНИЕ РАННЕЙ ДИАГНОСТИКИ ДИСГРАФИИ В НАЧАЛЬНОМ ОБРАЗОВАНИИ"

***Асланова Сабина Рамиз***

***Резюме***

В статье рассматривается сущность, причины и виды дисграфии с научно-педагогической точки зрения. Объясняются нейропсихологические основы нарушений письменной речи и подчеркивается важность ранней диагностики в начальной школе. Отмечается, что ранняя диагностика позволяет выявлять индивидуальные особенности развития детей и предотвращать психологические трудности в процессе письма. Сотрудничество учителя и логопеда, индивидуальные программы обучения и поддержка родителей повышают эффективность коррекционной работы. Ранняя интервенция положительно влияет на академическую успеваемость и психологическую стабильность ребёнка.

***Rəyçi: ped.ü.e.dok. N.T.Hüseynova***
***ADPU-nun Xüsusi təhsil kafedrasının 8 oktyabr 2025 -cü il tarixli iclasın 2 saylı protokolu***
***Daxil olma tarixi 17 sentyabr 2025-ci il***